# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 345** **Bakı şəhəri, 11 noyabr 2021-ci il**

***“Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 7 iyun tarixli 261 nömrəli, “Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 11 iyun tarixli 266 nömrəli, “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 9 iyul tarixli 294 nömrəli, “Özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 6 avqust tarixli 343 nömrəli, “Məşğulluq sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2019-cu il 8 avqust tarixli 350 nömrəli və “Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının yaradılması və əsasnaməsinin təsdiq edilməsi haqqında” 2019-cu il 12 dekabr tarixli 475 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 mart tarixli 58 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 7 iyun tarixli 261 nömrəli, “Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 11 iyun tarixli 266 nömrəli, “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 9 iyul tarixli 294 nömrəli, “Özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 6 avqust tarixli 343 nömrəli, “Məşğulluq sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2019-cu il 8 avqust tarixli 350 nömrəli və “Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının yara-dılması və əsasnaməsinin təsdiq edilməsi haqqında” 2019-cu il 12 dekabr tarixli 475 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 mart tarixli 58 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 277) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci və 1.2-ci bəndlər ləğv edilsin.
2. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“1.3. 2.1-ci bəndin birinci abzasında və 2.6-cı bənddə ismin müvafiq hallarında “Xidmət” sözü ismin müvafiq hallarında “Agentlik” sözü ilə əvəz edilsin;”.

3. 1.5-ci bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 1.6-cı bənd ləğv edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 16 noyabr.- S.4.